

"Hər il bir il ərzində 3 günəş tutulması baş verir. Bu gün ilin ilk günəş tutulması baş verəcək. Digər günəş tutulma hadisələri isə 13 iyul və 11 avqust tarixində baş verəcək".

Bu sözləri Azərbaycan Milli Elmlər Akademiyasının Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının direktor müavini Xıdır Mikayılov deyib.

Onun sözlərinə görə ilk günəş tutulması bu gün 15-dən 16 –a keçən gecə baş verəcək. Bakı vaxtı ilə saat 22:55:51-də qeydə alınacaq və fevralın 16-da tutulma maksimuma 00:51:29-da çatacaq. Saat 02:47:08-dəsona çatacaq. Davam etmə müddəti 2 saat 51 dəqiqədir. Günəş tutulması baş verərkən Azərbaycanda gecə olduğu üçün bu hadisə ölkəmizdə hiss olunmayacaq. Əsasən Sakit, Atlatik sahili ölkələrdə, Cənubi Amerikanın cənub hissəsində və Antraktidada hiss olunacaq.

X.Mikayılov bildirib ki, Ay Günəşlə Yer arasında olanrkən Günəş düz xətt üzrə olsa tutulma hadisəsi baş verir. Ümumiyyətlə bu il baş verəcək 3 günəş tutulma hadisələrinin heş biri Azərbaycanda müşahidə olunmayacaq.

"13 iyulda Bakı vaxtı ilə saat 05: 48 :23 –də qeydə alınacaq və tutulma maksimuma 07:01:05 –də çatacaq. Saat 08: 13: 44-də sona çatacaq. Davam etmə müddəti 3 saat 29 dəqiqə olacaq. Sakit və Hind okeanı hövzələrində Avstraliyanın cənub hissəsində və Antraktidada müşahidə ediləcək. 11 avqust tarixində baş verəcək günəş tutulması Rusiyanın şimalında, Şimali Amerikada, Skandinaviya və Çini əhatə edəcək. Bakı vaxtı ilə saat 12:02 :08-də qeydə alınacaq

və tutulma maksimuma saat 13:46: 24 –də çatacaq. Saat 15:30: 44-də başa çatacaq. Davam etmə müddəti 2 saat 29 dəqiqə olacaq".

X.Mikayılov qeyd edib ki, bu gün baş verəcək Günəş tutulmasını insanlar hiss etməyəcək. Əhaliyə mənfi təsiri olmayacaq. Günəşdə baş verən tutulmaların sadecə psixoloji təsiri ola bilər.